# Neft-qaz sərgisindən qlobal Bakı Enerji Həftəsinə

## Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanan bu tədbir Prezident İlham Əliyevin sayəsində dünyanın ən nüfuzlu enerji forumuna çevrildi

Bu sərgini "Əsrin müqaviləsi"nin müjdəçisi adlandırırlar. Çünki tədbirin keçirildiyi vaxt Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi üçün sazişin imzalanmasına cəmi bir neçə ay qalırdı. Amma bu barədə qəti bir söz demək mümkün deyildi. Hələ danışıqlar gedirdi. Məhz bu zaman Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, səyi və təşkilatçılığı ilə Bakıda ilk dəfə neft-qaz sərgisi keçirildi.

Prezident İlham Əliyev həmin dövrü belə xatırlayır: "O sərgi 1994-cü ildə təşkil edilmişdi. Birinci sərginin Azərbaycanın nəinki neft-qaz sənayesində, ümumi inkişafında çox böyük rolu olmuşdur. Çünki Azərbaycan gənc müstəqil dövlət idi. Dünyaya hələ özünü tanıtdıra bilməmişdi. Azərbaycanın zəngin neft-qaz yataqları haqqında, əlbəttə ki, mütəxəssis dairələrində bilgilər var idi. Ancaq geniş biznes dairələri bundan xəbərsiz idi. Məhz sərginin 1994-cü ildə keçirilməsi ilə Azərbaycanın imkanları, xüsusilə neft sektorundakı imkanları dünyaya təqdim edildi. Azərbaycana çox böyük maraq göstərilməyə başlandı. Təsadüfi deyildir ki, sərgidən bir neçə ay sonra "Əsrin kontraktı" imzalanmışdır ki, bu gün biz hamımız onun nəticələrini görməkdəyik".

Təməli 31 il əvvəl mayın 24-də Ümummilli Lider tərəfindən qoyulmuş sərgi artıq hər il təxminən eyni vaxtda keçirilən ənənəvi tədbirə çevrilib. İlk dəfə reallaşanda o, "Xəzər dənizində neft-qaz hasilatına dair sərgi" adlanırdı. Sonralar əhatə etdiyi sahələrə uyğun olaraq adını da təkmilləşdirdi və Beynəlxalq Xəzər Neft, Qaz, Neftayırma və Neft Kimyası Sərgisi adlanmağa başladı. Daha sonra bu tədbirlə yanaşı ayrıca energetika sərgisi də həyata vəsiqə aldı. Üstəlik, uzun illərdir hər il sərgi ilə paralel şəkildə eyniadlı konfrans da keçirilir. Artıq bir neçə ildir paytaxtımızda keçirilən mötəbər Bakı Enerji Həftəsinin özəyini də məhz uzunömürlü neft-qaz sərgisi təşkil edir. İndi bu həftə çərçivəsində həm də "yaşıl enerji" sərgisi baş tutur.

İlk dəfə cəmi 20 ölkənin şirkətlərinin təmsil olunduğu bir sərginin bu cür geniş şaxələnməsinin, böyük beynəlxalq tədbirə çevrilməsinin və 31 ildir öz məkanını dəyişməməsinin bəs səbəbi nədir? Əlbəttə, Ümummilli Liderin başladığı bütün işlər kimi, bu tədbirin də bünövrəsi möhkəm qoyulmuşdur. Prezident İlham Əliyevin düşünülmüş , uzaqgörən enerji siyasətinin uğurları, yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması, ümumiyyətlə, dövlətimizin başçısının dünyadakı nüfuz və ölkəmizin imici sayəsində Bakı Enerji Həftəsi sözügedən sahənin ən ümdə məsələlərinin müzakirə olunduğu məkana çevrilib. Burada baş tutan tanışlıqlar, nümayiş olunan nailiyyətlər yeni əməkdaşlıqlar üçün körpü yaradır. Nəticədə neçə-neçə müqaviləyə imza atılır, neçə layihənin bünövrəsi qoyulur.

Prezident İlham Əliyevin hər il sərginin açılışına gəlməyə vaxt tapması, ekspozisiyalarla tanış olması, iştirakçılarla söhbət etməsi və onların qarşısında çıxış etməsi tədbirin statusunu bir daha təsdiqləyir. Enerji həftəsinin açılışı münasibəti ilə hər il Prezidentimizin ünvanına bir sıra ölkələrin dövlət və hökumət başçılarından, tanınmış mütəxəssislərdən və şirkət rəhbərlərindən təbrik məktublarının gəlməsi də bunun sıradan bir tədbir olmadığını göstərir.

Keçən il enerji həftəsindəki çıxışında dövlətimizin başçısı digər bir məqamı da vurğuladı: "Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün, həmçinin qardaş BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir."

Göründüyü kimi, indiyədək neft-qaz sərgisi çərçivəsində bir sıra mühüm işlərin, qlobal layihələrin təməlqoyma, imzalama, yaxud açılış mərasimləri də keçirilib. Xatırladaq ki, 2018-ci il mayın 29-da, Bakı Ekspo Mərkəzində növbəti sərginin açılışı olan gün mötəbər qonaqlarımız eyni zamanda Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin açılış mərasimində də iştirak etdilər.

Enerji tariximizin ayrılmaz bir hissəsinə çevrilmiş bu ənənəvi tədbir artıq regionlarımıza doğru da "addımlayır". Ötən enerji həftələrinin iştirakçılarının Naxçıvanda, Şuşada olması, orada da konfranslar keçirməsi tədbirimizin ildən-ilə genişlənməsindən xəbər verir.

Bakı Enerji Həftəsi həmçinin Azərbaycanın özünün qazandığı nailiyyətlərin əyani nümayiş etdirildiyi, dövlətimizin başçısının dünyadakı nüfuzunun bir daha etiraf olunduğu tədbirdir. Məsələn, keçənilki sərginin açılışında Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays çıxış edərək demişdir: "Bakı Enerji Həftəsinin açılış mərasimində olmaq bizim üçün böyük şərəfdir. Azərbaycan Zati-aliləri cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə OPEC-in böyük dostudur, eyni zamanda əməkdaşlıq bəyannaməsinin dəstəkçisidir. Həm OPEC, həm də qeyri-OPEC neft istehsal edən ölkələr arasında böyük dəstəkçidir. Faktiki olaraq, Zati-aliləri Prezident Əliyev deyərdim, azsaylı qlobal liderlərdən biridir ki, OPEC və qeyri-OPEC istehsalçılarını hələ 2016-cı ildə bir araya gətirmişdir. Belə ki, həmin vaxt əməkdaşlıq haqqında Bəyannamə imzalanıb və o vaxt bu, OPEC+ sazişi kimi tanınmışdır. Zati-aliləri, eyni zamanda həmin dövrdən etibarən öz dəstəyini daim göstərmişdir. Belə ki bütün bunların hamısının balanslı, sabit bazarların təmin olunmasında böyük rolu olmuşdur. Bu, sadəcə, neft istehsalçılarının marağında olan məsələ deyil, eyni zamanda istehlakçıların marağında olan məsələdir. Nəticə etibarilə bunlar daha qlobal iqtisadiyyatın marağında olan məsələdir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 7 fevral (№ 27).- S.6.